

## Hacı İSMAYILOV

*Xalq artisti*

Xalq şairi Vaqif Səmədoğlu xalqımızın sevilən şairlərindən idi. Onun poeziyası heç bir şairin poeziyasına bənzəmir. O, Azərbaycan poeziyasında öz dəst-xəttini yaratmış, orijinal poetik təfəkkürü olan şair idi. Bilirsiniz ki, o, həm də dram əsərləri yazırdı. Mənə də onunla birlikdə işləmək nəsib olub. Bizim ilk görüşümüz təxminən, otuz-otuz beş il bundan əvvələ təsadüf edir. Gözəl bir pyes yazmışdı - "Yayda qartopu oyunu". O tamaşada mən doktor Həsənov rolunu oynamışam. Tamaşa uzun müddət Akademik Milli Dram Teatrının repertuarından düşmədi. Sözün əsl mənasında, xalq dilində yazılmış bir pyes idi. O tamaşaya bizim unudulmaz rejissorumuz Hüseynağa Atakişiyev quruluş vermişdi. Vaqif müəllim tez-tez gəlib məşqlərdə iştirak edirdi. Mən də bu tamaşada rol aldığım üçün sevinirdim.

Sonra iş elə gətirdi ki, biz onunla ikinci dəfə televiziya tamaşasında işləyəsi olduq. Vaqif müəllim Əjdaha iliylə bağlı gözəl bir telepyes yazmışdı. "Yaşıl eynəkli adam" tamaşasının çəkilişlərində biz Vaqif müəllimlə demək olar ki, hər gün görüşürdük. Özü də bir epizodda çəkilmişdi. Foto həvəskarı idi, çoxlu fotoaparatları vardı və maraqlı məqamları fotolentin yaddaşına köçürməyi xoşlayırdı. Fotoşəklə də yaradıcı münasibət bəsləyirdi. Son dərəcə unikal bir insan idi. "Yaşıl eynəkli adam"ı görkəmli rejissorumuz Ramiz Həsənoğlu çəkib və tamaşa çox uğurlu alındı, tamaşaçılar tərəfindən sevildi. Bu tamaşa seriya nəzərdə tutulmuşdu və sonra davamı da çəkildi. O biri iki seriya da olduqca maraqla qarşılandı. O tamaşada Azərbaycanın tanınmış aktyorları iştirak edirdi. Mən də Qafar rolunu oynayırdım. Qafarın da bir arzusu, istəyi vardı: qohum-əqrəbanı bir ocaq başına toplamaq. Bu məqsədlə Əjdaha ilindən istifadə edir, qohumların evinə əjdaha başı aparır. Vaqif Səmədoğlunun uğurlu tapıntıları, orijinal yanaşmaları tamaşanı xalqa sevdirdi.

Onun "Generalın son əmri" pyesi də bizim teatrda tamaşaya qoyulmuşdu və böyük rəğbətlə qarşılanmışdı. Həmişə düşünürdüm ki, axı niyə bizim teatrlarımız Vaqif Səmədoğlunun dramatuq potensialından geniş istifadə etmirlər? Onun pyesləri xalq dilində yazılıb və səhnəyə qoyulanda da o tamaşadakı deyimlər çox tez bir zamanda xalqın dilinə düşürdü. Bizim bu gün də belə tamaşalara böyük ehtiyacımız var. Təəssüf edirəm ki, onun dramaturji tərəfindən lazımınca istifadə edilmədi.

Heyif ki, amansız ölüm Vaqif müəllimi bizdən ayırdı. Nə qədər yazılmamış əsərləri qaldı. Onun işıqlı xatirəsi bizim qəlbimizdə həmişə yaşayacaq. Ruhu şad olsun!